

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 110 (21.011)

12 iyun 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Kəngərli rayonunda yeni suvarma şəbəkəsi qurulur





"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın qarşıya qoyduğu əsas vəzifələrdən biri də muxtar respublikada mövcud hidroresurslardan səmərəli və qənaətlə istifadə edilməsi, mühəndis-texniki tələblərə cavab verən müasir irriqasiya sistemlərinin yaradılmasıdır. Son illər muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlər torpaqların su təminatını xeyli yaxşılaşdırmışdır. Hazırda "Kəngərli rayonunda irriqasiya sistemlərinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində yeni suvarma şəbəkəsi qurulur.

İyunun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonuna gəlmiş, suvarma sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində görülən işlər və bundan əvvəl verdiyi tapşırıqların icrası ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, rayonun Yeni Kərki, Xıncab, Təzəkənd və Böyükdüz kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təmin olunması məqsədilə Uzunoba Su Anbarından 720 millimetrlik 16,2 kilometr uzunluğunda qoşa boru xətləri çəkilir. Bu günə qədər 9 kilometr məsafədə boru xətlərinin çəkilişi başa çatdırılmışdır. Su sərfi saniyədə 900 litr olacaq borular öz axımı ilə 3300 hektar torpaq sahəsini suvarmağa imkan verəcəkdir.

Layihəyə uyğun olaraq, rayon ərazisində yeni nasos stansiyasının, suqəbuledici və supaylayıcı hovuzların tikintisi də aparılır. Nasos stansiyasının binasında iş və elektrik otaqları, anbar istifadəyə veriləcək, hər birinin su sərfi saatda 1200 kubmetr olan 3 aqreqat quraşdırılacaqdır. Bu günə qədər stansiya binasında ilkin beton işləri başa çatdırılmış, 1500 kubmetrlik suqəbuledici hovuzun tikintisinə başlanılmışdır. Nasos stansiyasından supaylayıcı hovuza qədər diametri 720 millimetr olan 8,7 kilometr uzunluğunda təzyiqli boru xətti çəkilmişdir.

Layihəyə uyğun olaraq, ərazidə 16 kilometr paylayıcı boru xətlərinin, o cümlədən 120 kilometr uzunluğunda torpaq kanal və arxların çəkilməsi də nəzərdə tutulmuşdur. Paylayıcı boru xətlərinin üzərində 58 ədəd suburaxıcı quraşdırılacaqdır. Bu işlər tam başa çatdırıldıqdan sonra Kəngərli rayonunda 5800 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılacaqdır. Yeni suvarma sistemlərinin istifadəyə verilməsi rayonda əkinçiliyin inkişafını sürətləndirəcək, suvarma suyu olmayan ərazilərin davamlı su təminatına imkan yaradacaqdır. Bu da, öz növbəsində, rayonda kənd təsərrüfatı məhsulları istehsalının artmasına səbəb olacaqdır.

Ali Məclisin Sədri muxtar respublikada irriqasiya sistemlərinin müasirləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin bundan sonra da davam etdirilməsi, ərazidə yeraltı suvarma şəbəkəsinin qurulması üçün hazırlıq işlərinin görülməsi və tikinti işlərinin keyfiyyətlə başa çatdırılması barədə müvafiq tapşırıqlar vermişdir.

## Uzunoba Su Anbarında yenidənqurma işləri aparılmışdır

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Uzunoba Su Anbarında aparılan yenidənqurma işləri ilə də tanış olmuşdur.

Bildirilmişdir ki, yenidənqurma işləri zamanı anbarın suburaxıcı qülləsi və suburaxıcı boruları əsaslı şəkildə təmir edilmiş, bəndin 53 min kvadratmetr beton üzlüyü yenilənmiş, 1830 metr uzunluğunda dalğaqırıcı tikilmişdir. Yenidənqurma işlərindən sonra anbarın həcmi 8 milyon kubmetrə çatdırılmışdır. Su anbarından sızan drenaj sularını yığmaq üçün 650 metr uzunluğunda qapalı xətt çəkilmişdir. Həyata keçirilən tədbirlər anbarın istismar müddətini xeyli artırmışdır.

Uzunoba Su Anbarında istirahət guşələri və çimərliyin yaradılması istiqamətində görülən işlər də davam etdirilir. Ərazidə kafe inşa olunmuş, işıqlandırma sistemləri quraşdırılmışdır. Burada çimərlik və istirahət zonaları yaradılacaq, avtomobil dayanacağı, idman meydançaları istifadəyə veriləcəkdir. Su anbarının bəndi üzərində 3 istirahət köşkü quraşdırılmışdır. İstifadəyə verildikdən sonra burada sakinlərin asudə vaxtının səmərəli təşkili üçün hər cür şərait yaradılacaqdır.

Ali Məclisin Sədri su anbarının ətrafında yaşıllaşdırma işlərinin aparılması, anbara suyun yığılması və tikinti işlərinin çimərlik mövsümünədək başa çatdırılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## "Heydər Əliyev və xilaskarlıq missiyası" adlı elmi konfrans

***AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Özəl Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar "Heydər Əliyev və xilaskarlıq missiyası" adlı elmi konfrans keçirilib.***

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. 15 İyun – Milli Qurtuluş Gününün Azərbaycan tarixindəki yerindən danışan akademik qeyd edib ki, 1991-ci ildə öz dövlət müstəqilliyini elan edən Azərbaycan ağır problemlər burulğanına yuvarlanmışdı. O zaman ölkəyə başçılıq edən təsadüfi şəxslərin bacarıqsızlığı, səbatsızlığı, ağılsız addımları ağır nəticələrə gətirib çıxarmışdı. Artıq 1993-cü ilin yazında ölkə daxilində vəziyyət böhran həddinə çatmışdı. Azərbaycan torpaqlarının bir hissəsi ermənilər tərəfindən işğal olunmuş, yüz minlərlə yurddaşımız öz doğma ocaqlarından qaçqın, köçkün vəziyyətinə düşmüş, gənc müstəqil dövlətimiz dünyada təklənmişdi. Ölkədə əksər müəssisələr fəaliyyətini dayandırmış, əhalinin maddi durumu pisləşmiş, siyasi arenada hərc-mərclik, başıpozuqluq meyilləri baş qaldırmış, demokratik dəyərlərin təşəkkülü istiqamətində heç bir iş görülməmiş, hakimiyyət korrupsiyalaşmış ünsürlərin əlində oyuncağa çevrilmişdi. Belə bir vaxtda xalq yeganə düzgün yolu seçdi – dünya şöhrətli siyasi xadim, müdrik rəhbər Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etdi.



İsmayıl Hacıyev bildirib ki, 1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyev gərgin situasiyada yaşayan Bakıya gəldi. On minlərlə insan Bakı hava limanına axışaraq öz müdrik xilaskarını qarşıladı. 1993-cü il iyunun 15-də xalqın qətiyyətli istəyi gerçəkləşdi: ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinə Sədr seçildi. 1993-cü il oktyabrın 3-də xalqın böyük dəstəyi ilə Prezident seçilən görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi on il müddətində neçə-neçə qərinəyə sığmayan son dərəcə böyük işlər gördü.

Elmi konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Qurtuluşa gedən ağrılı yol", həmin institutun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov "Azərbaycan dövlətçiliyinin xilası", Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarov "Qayıdış – tarixin doğurduğu zərurət", Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru Mehdi Bağırov "15 iyundan başlayan milli inkişaf strategiyası", Naxçıvan Özəl Universitetinin tədris və elmi işlər üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyli "Siyasətdə varisliyin uğurlu formulu" mövzularında elmi məruzələrlə çıxış ediblər.

Vurğulanıb ki, müdrik rəhbər Heydər Əliyevin Azərbaycana ikinci rəhbərliyi dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə və böyük uğurla həyata keçirilməsi ilə səciyyələnir. "Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daima qoruyub saxlayacağıq", – deyən ümummilli liderimiz bu tarixi nailiyyətin, milli istiqlalımızın qorunub saxlanılması və möhkəmləndirilməsi üçün misilsiz işlər gördü. Vətəni və xalqını bəlalardan qorudu, xilas etdi. Dahi rəhbərin müdrik siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırıldı, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanıldı, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi, haqq işimizin dünyada tanıdılması istiqamətində mühüm tədbirlər həyata keçirildi.

Vurğulanıb ki, müstəqillik yolunda inamla irəliləyən Azərbaycanda bu gün ulu öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır.

**Elnur KƏLBİZADƏ**

# Milli Qurtuluş Günü münasibətilə tədbirlər keçirilir



***Muxtar respublika gömrük orqanlarının əməkdaşları müstəqillik dövrü tariximizdə son dərəcə mühüm və taleyüklü bir mərhələni təşkil edən 15 İyun – Milli Qurtuluş Gününü qeyd ediblər. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi keçirilib.***

“Heydər Əliyev və Azərbaycan” mövzusunda təşkil olunan sayca on yeddinci məşğələni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov qeyd edib ki, bu gün Azərbaycan xalqı və dövləti bütövlükdə özünü və öz müstəqilliyini, bu gününü və gələcəyini ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasına borcludur. Məhz müstəqillik dövründə əldə edilən bütün uğurların, ölkəmizdə hökm sürən siyasi-iqtisadi sabitliyin, təmin olunan təhlükəsizliyin, mövcud iqtisadi qüdrətin kökündə ulu öndərimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı dayanır.

Komitə sədri deyib ki, dahi rəhbərin məhv olmaq təhlükəsindən xilas edib dönməz və əbədi müstəqillik yoluna çıxardığı Azərbaycan xilaskar və qurucu rəhbərin – xalqımızın böyük oğlu Heydər Əliyevin şah əsəridir; bugünkü Azərbaycan ulu öndərin reallaşan arzusudur.

“Heydər Əliyev və Azərbaycan” mövzusunda çıxış edən Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli qeyd edib ki, tarixən öz müstəqilliyi və müqəddəratı uğrunda mübarizə aparan, bir gün doğacaq azadlıq günəşinin ümidi ilə tarixin ağır dönəmlərində öz varlığını qoruyub saxlayan Azərbaycan xalqının müstəqillik tarixində Milli Qurtuluş Gününün həlledici rolu və önəmi vardır. Dahi rəhbər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ümidsizliyə düçar olmuş, sabaha olan inamı sarsılmış bir xalqın özünə qayıdışı, öz içində inama və ümidə tutunması baxımından əlamətdardır.

Vurğulanıb ki, ulu öndərin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Azərbaycanı xaos və hərc-mərcliyin pəncəsindən, parçalanmaq təhlükəsindən, vətəndaş müharibəsindən xilas etdi. Qısa vaxtda ölkədə yaradılan siyasi sabitlik nəticəsində dahi rəhbər bütün sahələrdə ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasını hazırlayıb həyata keçirdi. Qonşu ölkələrlə pozulmuş münasibətlər bərpa olundu, dünyanın inkişaf etmiş ölkələri ilə xalqımızın və dövlətimizin milli maraqlarına uyğun əlaqələr quruldu. Azərbaycan dünyaya açıldı.

“Heydər Əliyev: müdriklik xəzinəsi” mövzusunda məruzə ilə çıxış edən komitənin İstintaq və təhqiqat şöbəsinin rəisi, gömrük xidməti mayoru Süleyman Seyidov vurğulayıb ki, görkəmli dövlət xadimi Heydər Əliyev öz əməli fəaliyyəti ilə nəinki xalqımız üçün, hətta bütün insanlıq üçün dəyərli bir xidmət nümunəsi yarada bilib. Ulu öndər Heydər Əliyevin müdrikliyi bəşəri ideyaların ölməzliyinin, azadlığın, insanlığın, ağıl və təfəkkürün, xalq məhəbbətinin yenilməzliyinin nümunəsidir.

Qeyd olunub ki, tarix yaradan dahi şəxsiyyət Heydər Əliyevin gücü onun ideyalarındadır. Təbii ki, ideyanın gücü onun ətrafına toplaşanların əhatə dairəsi ilə ölçülür. Bu gün Heydər Əliyev ideyaları dünya azərbaycanlılarını, türk dünyasını, dünyanın xeyirxah, sülhsevər insanlarını birləşdirir.

Çıxışlarda xüsusilə vurğulanıb ki, əbədiyaşar lider Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində son illər həyatımızın bütün sahələrində qazanılan nailiyyətlər ulu öndərimizin dövlətçilik ideyalarının təntənəsidir. Azərbaycan öz liderinin ideyaları işığında, öz Prezidentinin rəhbərliyi altında uğurdan-uğura addımlayır.

Sonda tədbir iştirakçıları “Azərbaycan qədər əbədi” adlı filmə baxıblar.

* * *

***Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanası 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirib.***

Xəstəxananın baş həkimi Əli Ələsgərov ümummilli liderimiz Heydər Əliyevin keçdiyi şərəfli ömür yolundan, çoxşaxəli dövlətçilik fəaliyyətindən, Azərbaycan üçün göstərdiyi misilsiz xidmətlərdən söz açıb. Bildirilib ki, səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider xalqımızın təkidli tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra digər sahələr kimi, səhiyyədə də yeni quruculuq dövrü başlanmışdır. Naxçıvanda da əhalinin sağlamlığının qorunması, səhiyyə xidməti səviyyəsinin daha da yaxşılaşdırılması, yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Bütövlükdə, 1969-1990-cu illərdə Naxçıvan Muxtar Respublikasında 1156 yerlik xəstəxana, növbədə 1045 nəfər qəbul edə biləcək poliklinika və ambulatoriyalar tikilmişdir ki, bu da ulu öndərimiz tərəfindən əsası qoyulmuş genişmiqyaslı quruculuq və inkişaf konsepsiyasının əyani ifadəsidir.

Baş həkim vurğulamışdır ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda hazırda səhiyyənin inkişafı, əhalinin dünya standartlarına uyğun tibbi yardımla təmin olunması üçün genişmiqyaslı islahatlar həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqla təchiz olunması məqsədilə doqquz milyon manat vəsaitin ayrılması səhiyyəyə göstərilən xüsusi diqqət və qayğının ifadəsidir.



Sonra xəstəxananın həkimi Ramidə Bağırova “Milli Qurtuluş və Naxçıvan Muxtar Respublikasının inkişafı”, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədri Mənsur Rzayev “Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır”, tibb üzrə fəlsəfə doktoru Etibar Babəyli “Azərbaycanın özü qədər əbədi” mövzularında məruzələrlə çıxış etmişlər.

Baş həkimin müavini Ramazan Abbasovun, Cərrahiyyə şöbəsinin müdiri Məhərrəm Tarverdiyevin, həkim-travmatoloq Aydın Qazıbəyov və başqalarının çıxışlarında 15 iyun tarixi müstəqil dövlətimizin bünövrəsinin qoyulduğu gün kimi dəyərləndirilib. Müstəqil Azərbaycanda qazanılan hər bir nailiyyətin ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xəttin bəhrəsi olduğu vurğulanıb.

* * *



***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş “Qurtuluşdan intibaha” adlı konfrans keçirilmişdir.***

Konfransı Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açmışdır.

Kitabxananın şöbə müdiri Nailə Əsədova “Böyük xilaskarlığın tarixi nümunəsi” mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinə nəzər salarkən aydın olur ki, ulu öndərin genişmiqyaslı fəaliyyətində müxtəlif xarakterli xilaskarlıq missiyası xüsusi mərhələ təşkil edir. 1969-cu ildə xalqımızın böyük oğlu Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkəmizi durğunluqdan, ətalətdən, gerilikdən xilas etmiş, respublikamızı əsl inkişaf yoluna çıxarmışdır.

Qeyd edilmişdir ki, 15 iyun 1993-cü ildə keçirilən Azərbaycan Respublikası Ali Sovetinin fövqəladə sessiyasında görkəmli dövlət xadimi Heydər Əliyev Ali Sovetin Sədri seçilmişdir. Həmin tarixi gündən etibarən ulu öndər Azərbaycanın qurtuluşu naminə xilaskarlıq missiyasına başlamışdır. Ona görə də 15 iyun Azərbaycanın ən yeni dövr tarixinə “Milli Qurtuluş Günü” kimi daxil olmuşdur.

Sonra M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının əməkdaşları Minayə Nəbisoyun və Sevda Rzayevanın çıxışları olmuşdur.

Sonda tədbir iştirakçıları əlamətdar gün münasibətilə təşkil edilmiş sərgiyə baxmışlar.

***İyunun 11-də Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Heydər Əliyev Muzeyində “Naxçıvandan başlanan milli qurtuluş” mövzusunda elmi-praktik konfrans keçirmişdir.***



Konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli açmışdır. Bildirilmişdir ki, 1993-cü ildə Azərbaycan dərin siyasi böhranla üzləşmiş, ölkədə vətəndaş qarşıdurması yaranmış, ölkə parçalanmağa, yox olmağa doğru üz tutmuşdu. Ölkəni bu vəziyyətdən ümummilli lider Heydər Əliyev xilas etmişdir. Məhz buna görə 1993-cü il iyunun 15-i, ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı günü müstəqil Azərbaycanın qurtuluş tarixinin başlanğıcı hesab edilir.

YAP Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi ilk partiya təşkilatının sədri Fazil İbrahimov “Naxçıvandan başlanan qurtuluş yolu” mövzusunda məruzə ilə çıxış edərək bildirmişdir ki, 1990-cı il iyulun 22-də ümummilli lider Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışı zamanı muxtar respublikanın müxtəlif yerlərindən gəlmiş 80 mindən çox insanın Naxçıvan şəhərinin baş meydanında onu yüksək coşqu ilə qarşılaması əhalinin dahi siyasətçiyə xilaskar kimi baxmasından irəli gəlirdi. Həmin ildən etibarən Naxçıvandan başlanan dövlət quruculuğu prosesi, qədim diyarda atılan tarixi addımlar, qəbul edilən qərarlar həm muxtar respublikanın taleyində, həm də, bütövlükdə, Azərbaycanın gələcək inkişafı üçün xüsusi rol oynayırdı.

Fazil İbrahimov qeyd etmişdir ki, ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyulmuş, həmin gün müstəqillik tariximizə “Milli Qurtuluş Günü” kimi daxil olmuşdur. Ölkəmiz yalnız ulu öndərin qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirə bilmiş, inkişaf etmiş, güclənmişdir.

YAP Naxçıvan Şəhər Təşkilatı Şurasının üzvü Əşrəf Nəcəfov “Xalqın böyük xilaskarı” mövzusunda məruzə ilə çıxış edərək vurğulamışdır ki, tarixdə iz qoymuş böyük şəxsiyyətlər həmişə dövlətçiliyin ideoloji-siyasi və iqtisadi əsaslarını formalaşdıraraq optimal dövlət modeli yaratmağa çalışmışlar. Azərbaycan Respublikasının milli inkişaf modelinin banisi olan ulu öndər Heydər Əliyev də təkamülə əsaslanan demokratik tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, müstəqil dövlətimizin ideoloji-siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi-praktik prinsiplər əsasında müəyyənləşdirmişdir.

YAP Naxçıvan Şəhər Təşkilatının sədr müavini, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev “Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır” mövzusundakı çıxışında qeyd etmişdir ki, müstəqil Azərbaycanda qazanılan hər bir nailiyyət ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xəttin bəhrəsidir. 2003-cü ildən etibarən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasi xətt ölkəmizin siyasi və iqtisadi gücünü daha da artırmışdır.

“Ümummilli liderimiz Heydər Əliyevin qurduğu müstəqil, qüdrətli Azərbaycan Respublikası xarici siyasət prioritetlərini uğurla həyata keçirir, dövlətimizin beynəlxalq aləmdəki mövqeləri gündən-günə güclənir”, – deyən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Cəbi Quliyev 155 dövlətin dəstəyi ilə ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi faktını xatırladaraq qeyd etmişdir ki, bu, Azərbaycanın dünyada qazandığı böyük nüfuzu ilə bağlı idi.

Sonra tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən filmə baxmışlar.

Elmi-praktik konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli yekun vurmuşdur.

* * *

***Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında da 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.***

Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev açaraq bildirib ki, Azərbaycanın taleyinin həll olunduğu ötən əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması ölkəmizin tarixində dönüş nöqtəsi, qurtuluş anı olub. Dövlət müstəqilliyimizin rəsmən 1991-ci ildə bəyan edilməsinə baxmayaraq, ermənilərin elan olunmamış hərbi təcavüzünə məruz qalan ölkəmizin daxilində vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması ilə nəticələnə bilərdi. İki ilə yaxın müstəqillik tarixində naşı rəhbərliyin səriştəsiz idarəçiliyi nəticəsində xaos və anarxiya, hakimiyyət üstündə çəkişmələr davam edirdi. Bütün bunlar yenicə müstəqil olmuş bir ölkəni addım-addım məhvə və süquta sürükləyirdi.

Qeyd olunub ki, ölkə miskin bir vəziyyətə düşəndə, iqtisadiyyatı, hərbi potensialı, infrastrukturu dağılanda, əhalisinin təhlükəsizliyinə heç bir zəmanət olmayanda xalqımız üzünü dünya şöhrətli siyasətçi, xalqımızın böyük oğlu Heydər Əliyevə tutub onu Bakıya, öz xilaskarlıq missiyasını həyata keçirməyə çağırdı. Xalqın çağırışına, Vətəninin ağır vəziyyətinə və müstəqil dövlətçiliyin təhlükə altında olmasına biganə qala bilməyən ulu öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı və Azərbaycan müstəqilliyinin zəfər yürüşünün tarixlərə şahid olacaq salnaməsini yazmağa başladı. 20 ildən çoxdur ki, Azərbaycan bu yolla inamla gedərək inkişaf edir, yeni-yeni uğurlara imza atır.

Tədbirdə çıxış edən partiya üzvlərindən İlqar Həsənov, Hacağa Bağırov, rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli və başqaları bildiriblər ki, ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin inamlı, son dərəcə cəsarətli, xalqın milli maraqlarına xidmət edən daxili və xarici siyasəti nəticəsində ölkəmizdə bütün sahələrdə dinamik inkişaf müşahidə olunur, əhalinin sosial rifahı gündən-günə yaxşılaşır. Bütün bunlar Milli Qurtuluş Gününün bəhrələridir.

**Xəbərlər şöbəsi**

# Ali təhsil ocaqlarının məzun günü



***Dünən Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Özəl Universiteti tələbələrinin məzun günü münasibətilə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev açaraq bütün məzunları təbrik etmiş, onlara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış etmişdir. Qeyd olunmuşdur ki, gənclərin formalaşması, lazımı bilik alması, müasir dünyanı dərk etməsi baxımından tələbəlik dövrü mühüm əhəmiyyət daşıyır. Təhsil, eləcə də ali təhsil hər bir cəmiyyətin həyatında mühüm əhəmiyyətə malikdir. Xalqımızın təhsillənməsi, gənc kadrların hazırlanması sahəsində görülən işləri yüksək dəyərləndirən, milli tərəqqidə, müstəqil dövlət quruculuğunda təhsilin əvəzsiz rolunu xüsusi vurğulayan ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edirlər. Əgər bunlar olmasaydı, Azərbaycan iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik".

Bildirilmişdir ki, Azərbaycanda təhsilin inkişafı, bu sahədə güclü maddi-texniki bazanın yaradılması ümummilli liderimizin ali dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ulu öndərin müəyyənləşdirdiyi təhsil strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Təhsil sahəsində qarşıya qoyulan vəzifələrin icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında da ardıcıl tədbirlər görülür. Muxtar respublikamızda təhsil müəssisələrinin maddi-texniki bazaları gücləndirilir və onların informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması diqqət mərkəzində saxlanılır. Yeni istifadəyə verilmiş sosial obyektlərin böyük əksəriyyətinin təhsil obyekti olması bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Yaradılmış şərait təhsilin səviyyəsini yüksəltmişdir. Sevindirici haldır ki, gənclərimiz intellektual və yaradıcılıq potensiallarını daim artırır, təhsildə uğurlar qazanır, müxtəlif dövlət orqanlarında, icra strukturlarında, özəl bölmədə geniş təmsil olunurlar.

Sonra Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin nümayəndəsi Rəşad Xudiyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayevin, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı İlahə Haqverdiyevanın çıxışları olmuşdur.

Tədbirin sonunda universitetin ictimai həyatında və təhsil sahəsində fərqlənən tələbələrə ali təhsil ocağı adından təşəkkürnamələr, diplom əvəzi və döş nişanları təqdim edilmişdir.



Naxçıvan Dövlət Universitetində də ənənəvi məzun günü keçirilib. Universitetin rektoru, professor Saleh Məhərrəmov tədbiri açaraq Azərbaycanda elmin, təhsilin inkişafından danışıb, muxtar respublikada gənclərin ali təhsil almaları, yerli kadr potensialının gücləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib. Tələbələri məzun olmaları münasibətilə təbrik edən rektor bildirib ki, 2013-2014-cü tədris ilində universiteti bakalavr təhsil pilləsi üzrə 958, magistratura təhsil pilləsi üzrə 168 nəfər bitirir, 210 nəfər tələbə isə ikinci ali təhsilini tamamlayır. Builki məzunlardan 63 nəfəri xarici ölkə vətəndaşıdır.

Tədbirin bədii hissəsi İncəsənət fakültəsinin, Tələbə Teatr Studiyasının hazırladığı rəngarəng konsert proqramı ilə davam edib. İncəsənət fakültəsinin xalq çalğı alətləri ansamblının müşayiəti ilə Zeynəb Yusifova, Bəhruz Quliyev, Nigar İbrahimova və digərlərinin ifasında mahnılar səslənib. Vokal qrupunun məzunlarla birgə ifa etdikləri "Tələbəlik illəri" mahnısı, gürcü tələbələrdən ibarət rəqs qrupunun təqdim etdiyi rəqslər tədbir iştirakçılarında xoş əhval-ruhiyyə yaradıb.

Yekunda son zəngin sədaları altında məzun simvolu olan dördkünclü akademik keplərin atılması mərasimi keçirilib, xatirə şəkilləri çəkdirilib.

**Xəbərlər şöbəsi**

## Günəşi qarşılayanların ölkəsində

*Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Cənubi Koreyada səfərdə olub*

***Qloballaşma, texnologiya və sürətli tərəqqi əsri ilə ayaqlaşmağa çalışan Naxçıvan Dövlət Universitetində son 19 ildə dünyaya inteqrasiya, tədrisdə ən müasir texnologiyaların tətbiqi, distant təhsilə keçid, elektron universitet qurulması istiqamətində mühüm işlər görülmüşdür. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) ilə birgə həyata keçirilən "Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi bu prioritet vəzifələrin həllinə xidmət edir.***

2012-ci ildə tərəflər arasında layihə ilə bağlı müqavilə imzalandıqdan sonra KOICA-nın Azərbaycandakı rezident nümayəndəsi xanım Kim Eun-Sukun başçılığı ilə koreyalı mütəxəssislərdən ibarət qrup müxtəlif vaxtlarda Naxçıvan Dövlət Universitetinə ezam olunmuşdur. Sistemin ilkin tədqimatı keçirilmiş, müzakirələr aparılmış, yerli mütəxəssislər məlumatlandırılmışlar. 2013-2015-ci illəri əhatə edən layihənin həyata keçirilməsinə KOICA tərəfindən 3 milyon 500 min ABŞ dolları həcmində vəsait ayrılmışdır. Layihə çərçivəsində universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyidin rəhbərliyi ilə bir qrup nümayəndə on beş gün müddətinə Cənubi Koreyanın paytaxtı Seul şəhərinə ezam olunmuş, layihə ilə bağlı təlim keçmişlər.

Səfərin ilk günü KOICA-nın Orta Şərq və Mərkəzi Asiya üzrə proqram meneceri Kim Na Younq ilə görüş zamanı o, Cənubi Koreya və KOICA ilə bağlı ətraflı məlumat verdi. Qeyd edək ki, KOICA-nın tərəfdaşlıq etdiyi ölkələrdə 43 nümayəndəliyi mövcuddur. Bu şirkət Azərbaycanda da qrant yardımı və texniki əməkdaşlıq proqramları həyata keçirməkdədir.

Seul Milli Universitetinin rektoru, professor Kim Seonq-Kon ilə görüşdə rektor ölkənin tarixi, mədəniyyəti, dövlət idarəçiliyi, sosial-iqtisadi inkişafı haqqında geniş məruzə etdi. Slaydlar şəklində hazırlanmış bu məruzə bizim Koreya haqqında təsəvvürümüzü zənginləşdirdi.

Növbəti günlərdə layihənin icraçı şirkəti "Donqvon CNS"nin tanınmış mütəxəssisləri tərəfindən keçilən təlimlərə start verildi. Təlimlərdə sistemin fəaliyyəti, əsas funksiyaları, bu sahədə Cənubi Koreya Respublikasının qabaqcıl təcrübəsi əsasında informasiya sistemi ilə bağlı mühazirələr dinlədik. Təlimlərdə tələbələrə onlayn təhsil xidməti göstərilməsi üçün portal, distant təhsil, elektron təhsil şəbəkəsinin yaradılması, rəqəmsal multimedia infrastrukturunun təkmilləşdirilməsi üçün nəzərdə tutulan sistem haqqında, ali məktəbin idarəetmə sistemini təkmilləşdirəcək müasir texnologiyalar haqqında ətraflı məlumat verildi.

Cənubi Koreyada 400-dən çox universitet və müxtəlif ali məktəb fəaliyyət göstərir. Ali təhsilin əsas məqsədi dərin nəzəri təhsil vermək, nəzəri biliklərin tətbiqini təmin etmək, kamil mütəxəssis yetişdirməkdən ibarətdir. Ölkədə ali təhsil müddəti 4-6 ildir. Hökumət universitetlərin müstəqilliyinin artırılması, dövlət təhsil sisteminin tənzimlənməsi, özəl tədris xərclərinin azaldılması məsələlərinə nəzarət edir, tələbələrin seçim proseduru ilə bağlı əsas minimum tələbləri müəyyənləşdirir. Universitetlər təlim nəticələrini, qabiliyyət imtahanlarında toplanmış balları, abituriyentin aldığı sertifikatları, tövsiyə məktublarını əsas götürərək tələbə qəbulu aparırlar. Tərcüməçimiz, Soqanq Universitetinin Koreya linqvistikası ixtisası üzrə II kurs magistrantı Könül Mustafayevanın və 200-dən çox azərbaycanlının Cənubi Koreyada ali təhsil alması qəlbimizi qürur hissi ilə doldurdu.

Naxçıvan Dövlət Universitetinin Cənubi Koreya ilə elm, təhsil sahəsində əlaqələri Asiya ilə əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb edir. Bu əməkdaşlığın on ildən artıq tarixçəsi vardır.

2010-cu ilin aprel ayında Kimçonq Universitetinin nümayəndə heyətinin Naxçıvan Dövlət Universitetinə səfəri zamanı universitetlərarası əməkdaşlıq müqaviləsi imzalanmışdır. 2011-ci ilin sentyabr ayında Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Cənubi Koreyanın Kimçonq və Kyumqsunq universitetlərində görüşlər keçirmişdir. Kimçonq Universiteti ilə əsaslı tanışlıqdan sonra bu ali təhsil ocağı ilə Naxçıvan Dövlət Universitetində mikrobiologiya, otelçilik və turizm ixtisasları üzrə əməkdaşlıq imkanları sahəsində razılaşma əldə edilmiş, universitet əməkdaşlarının elmi əsərlərinin qarşılıqlı nəşr edilməsi qərara alınmışdır. Busan Kyumqsunq Universiteti ilə tanışlıq da universitetlər arasındakı əməkdaşlığın imkanlarının müəyyənləşməsində əhəmiyyətli olmuşdur. Naxçıvan Dövlət Universiteti ilə Kyumqsunq Universiteti arasında yeni əməkdaşlıq müqaviləsi imzalanmışdır. Bu universitetlə Naxçıvan Dövlət Universiteti arasında daha çox iqtisadiyyat, tarix, qayaüstü rəsmlərin birgə tədqiqi və incəsənət sahələrində əməkdaşlığa üstünlük verilməsi qərara alınmışdır. Əməkdaşlığın davamı olaraq, 2011-ci ilin noyabr ayında Kimçonq Universitetinin rektoru xanım Sunq Ae Kanq və bir qrup nümayəndə Naxçıvan Dövlət Universitetində olmuşlar. Elə həmin il Naxçıvan Dövlət Universitetində Cənubi Koreya Mədəniyyət və Dil Tədrisi mərkəzləri fəaliyyətə başlamışdır. Bu gün hər iki universitet arasında elmi təcrübə və tələbə mübadiləsi, elə bizim bu səfərimiz qarşılıqlı əlaqələr sahəsində aparılan səmərəli işin uğurlu davamıdır.




Naxçıvan Dövlət Universitetindən tərcümə (ingilis dili-Azərbaycan dili), hüquqşünaslıq, stomatologiya ixtisasları üzrə 3 nəfər birinci kurs tələbəsi 2012-2013-cü tədris ilinin ikinci semestrində tələbə mobilliyinə əsasən, ali təhsillərini Cənubi Koreyanın Kimçonq Universitetində davam etdirmişdir.

Səfərimiz universitetdə təhsil alan xarici tələbələrlə görüşə təsadüf etdiyindən məmnuniyyətlə bu görüşdə iştirak edib rektorun xarici tələbələrə böyük həssaslıqla yanaşdığının müşahidə etdik. Heyətimizin rəhbəri dosent Surə Seyid görüşdə çıxış edərək ölkələrarası əlaqələrin inkişafında elm, təhsil sahəsində tərəfdaşlığın rolundan danışdı, Naxçıvan Dövlət Universitetinin beynəlxalq əməkdaşlığında dost, tərəfdaş universitet olan Kimçonq Universitetinin ayrıca yeri olduğunu bildirdi.

Rektor xanım Sunq Ae Kanq Kimçonq Universiteti haqqında ətraflı məlumat verdi. Görüşdə naxçıvanlı həkim-müəllimlərimizin Kimçonq Universitetində təkmilləşdirmə kurslarında olması, bu ali təhsil ocağında Azərbaycan dili kurslarının açılması, Azərbaycan ədəbiyyatını, mədəniyyətini təbliğ edəcək mərkəzin yaradılması ilə bağlı təkliflər səsləndirildi.

Cənubi Koreya Kiber Universitetində universitetin rektoru, professor Çunq Soon Kim heyətimizi qəbul edərkən dünyada ilk kiber universitet olan bu ali təhsil ocağının Koreya Çunqanq Təhsil Vəqfi (KCEF) adı altında Cənubi Koreya Universiteti ilə birlikdə fəaliyyət göstərdiyini, Koreya ali məktəbləri sırasında birinci onluğa daxil olduğunu bildirdi. Bir çox xarici universitetlə əməkdaşlığa malik olan universitet Koreya tarixinin və mədəniyyətinin təbliği məqsədilə rəsmi səfərlərin təşkili ilə məşğul olan Koreya fondu ilə əlaqəli fəaliyyət göstərir, 2013-cü ildən etibarən Koreya dilinin sürətli onlayn tədrisini həyata keçirən "Korean Quick" proqramını uğurla həyata keçirir. Tədris işləri üzrə prorektor, dosent Surə Seyid məlumat verdi ki, Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında elektron hökumət və elektron universitet quruculuğu, elm və təhsilin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi vasitəsilə inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Elektron təhsil şəbəkəsi, elektron kitabxana yaradılması, semestr imtahanlarının elektron test üsulu ilə aparılması, virtual əməkdaşlığın genişlənməsi, beynəlxalq videokonfransların təşkili buna əyani sübutdur. Kiber Universitetinin rektoru Naxçıvan Dövlət Universitetində Cənubi Koreya Mədəniyyət və Dil Tədrisi mərkəzlərinin fəaliyyəti, "Koreyaşünaslıq" seçmə fənninin, Koreya dilinin tədrisi, 7 nəfər koreyalı tələbənin təhsil alması ilə bağlı məlumatları məmnunluq hissi ilə qarşılayaraq Koreya dilinin və mədəniyyətinin tədrisi üçün lazımi köməkliklər göstərməyə hazır olduqlarını bildirdi. Görüşdə universitetlərarası əməkdaşlığın inkişafı ilə bağlı təkliflər səsləndirildi.

Səfər zamanı ölkənin tarixi-memarlıq komplekslərini, görməli yerlərini də gəzməyə fürsət tapdıq. Min iki yüz illik tarixi olan Cənubi Koreyanın ən məşhur buddist məbədi Bonqeunsada epiqrafik yazılar, tarixi abidələr qorunub saxlanılır. Əvvəllər "Qyeonseonqsa məbədi" adlanan bu məbəd 794-cü ildə inşa edilmişdir. 1498-ci ildə hakimiyyətdə olan xanım Jeonqhyeon Kral Seonqyonqun məzarının şərqində olan Qyeonseonqsa məbədini yeniləyərək "Bonqeunsa" adlandırmışdır. 1498-ci ildə məbəd əsaslı təmir edilmişdir. Burada 3 min 479 ədəd buddist yazı nümunələri qorunub saxlanılır. 1960-cı illərdən fəaliyyətə başlayan Donquk Tərcümə Mərkəzi bu yazıların tədqiqi ilə məşğul olur. Yapon istilası və Koreya müharibəsi zamanı dağıntılara məruz qalan məbəd yenidən bərpa edilərək Koreya Buddizm Mərkəzinə, ölkənin əsas turizm məkanına çevrilib.

Seulun şimalında yerləşən kral sarayı da tarixiliyi və milli arxitekturası ilə seçilir. Saray 1395-ci ildə tikilmiş, yandıqdan sonra tərk edilmiş, təxminən, 3 əsr baxımsız qalmışdır. 1867-ci ildə isə yenidən bərpa edilmişdir. Bu saray Joseon sülaləsinin hakimiyyəti dövründə tikilmiş "Beş möhtəşəm saray"dan ən genişi və önəmlisidir.

Seulun mərkəzində, ən yüksək nöqtəsində, Namsan dağında yerləşən məşhur Seul qülləsi şəhərin simvoludur. 236,7 metr hündürlüyündə olan, kanat yolu ilə qalxdığımız qüllədən şəhər ovuc içi kimi, olduqca gözəl görünür. 2,5 milyon ABŞ dollarına başa gələn, tikintisi 1969-cu ildən 1971-ci ilin sonlarına qədər davam edən bu qüllə 1980-ci ildə istifadəyə verilmişdir.

Ümumiyyətlə, səfər müasir texnologiyalarla, elektron təhsil şəbəkəsi ilə bağlı bilik və təcrübəmizi artırdı, eyni zamanda özünəməxsus tarixə və mədəniyyətə, inkişaf yoluna malik bir ölkə haqqında bizdə zəngin təəssüratlar yaratdı.

***Günəş kainatı ilk dəfə burada salamlayır. İnsanlar hər səhər Günəşi erkən qarşılamaqla onun zərrin şəfəqlərindən nur, ziya, enerji alırlar. Cənubi Koreyanı, texnologiyanın dili ilə desək, "smartlar vətəni" də adlandırmaq olar. O qədər də təbii sərvətlərə malik olmayan bu ölkənin yeganə və ən böyük varidatı ağıl, idrak, təşəbbüskarlıq və zəhmətkeşlikdir. Bu, əsrlər boyu imperiyaların, müharibələrin qazana bilmədiklərini qazandıran, yeganə tərəqqi və rifah yolu olan, heç vaxt tükənməyən, dəyərini itirməyən, möcüzələr yaradan bir varidatdır. Biz də öyrəndiklərimizi, təcrübəmizi tətbiq etmək, paylaşmaq həvəsi və enerjisi ilə Vətənə döndük. İnanırıq ki, keçilən təlimlər müasir texnologiyaların öyrənilməsi və tədrisdə tətbiqi, layihənin uğurla reallaşdırılması baxımından əhəmiyyətli olacaq.***

**Mehriban SULTAN**
***Naxçıvan Dövlət Universitetinin Mətbuat şöbəsinin müdiri***
***Naxçıvan-Seul-Naxçıvan***

***"Naxçıvan Muxtar Respublikası sakinlərinin əmək hüququnun qorunması, əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, işçilərin maddi, sosial, mənəvi və digər həyati tələbatlarının ödənilməsi sosial-iqtisadi siyasətin əsas prioritet istiqamətini təşkil edir. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada səmərəli işgüzarlıq mühiti formalaşdırılıb, investisiya fəallığı daha da artırılıb, insan kapitalının yüksək inkişaf səviyyəsi təmin edilib". Bu fikirlər sərhəd bölgəsi Sədərək rayonunda keçirilən növbəti əmək yarmarkasında səsləndirilib.***

## Sərhəd bölgəsində əmək yarmarkası

Tədbiri giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov açıb. O qeyd edib ki, Məşğulluq Mərkəzinin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində olan boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər. Bugünkü əmək yarmarkası da işaxtaran vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin edilməsi istiqamətində ardıcıl olaraq həyata keçirilən mühüm tədbirlərdən biridir. Yarmarkanın təşkilində əsas məqsəd işaxtaranların öz ixtisaslarına uyğun işlə təmin olunmasıdır. Ötən illərdə mərkəzə müraciət edən vətəndaşlar əmək yarmarkaları vasitəsilə özlərinə daimi iş yerləri tapıblar.

İşaxtaran vətəndaş Rəhman Mehdiyev belə yarmarkaların keçirilməsinin vətəndaşların işlə təmin edilməsində böyük əhəmiyyəti olduğunu vurğulayıb, işaxtaranlara, xüsusilə gənclərə istəklərinə uyğun iş yeri tapmaq üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirib.

Əmək yarmarkasında Sədərək Rayon İcra Hakimiyyətinin əməkdaşı Samil Kazımov çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikamızda əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. Vurğulanıb ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın birinci mərhələsinin uğurlu icrası məşğulluq probleminin həlli ilə nəticələnib. Muxtar respublikamızda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən böyük qayğı kimi dəyərləndirilir. Samil Kazımov əmin olduğunu bildirib ki, bu gün keçirilən əmək yarmarkasında da iştirak edənlər istəklərinə uyğun iş yeri əldə edə biləcəklər.

Sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. Yarmarkaya 7 dövlət və özəl təşkilatdan 92 boş iş yeri çıxarılmışdı. Həmin gün 12 nəfərə göndəriş verilib.

**Cəfər ƏLİYEV**

## Magistrantların VI regional elmi konfransı

Naxçıvan Dövlət Universitetində magistrantların VI regional elmi konfransı keçirilib. Konfrans Universitet televiziyasının hazırladığı "Elmin zirvəsinə doğru" sənədli filmin nümayişi ilə başlayıb. Universitetin rektoru, professor Saleh Məhərrəmov giriş sözü ilə çıxış edərək universitetdə magistratura təhsil pilləsi üzrə təhsilin səviyyəsindən və qarşıda duran vəzifələrdən danışıb. Konfransda universitetin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev, magistratura üzrə dekan, biologiya elmləri doktoru Etibar Məmmədov, mətbuat tarixi ixtisaslaşmasının I kurs magistrantı Kifayət Heydərova çıxış edib. Çıxışlarda magistrantların təhsil almaları üçün yaradılan şəraitdən, onların elmdə və təhsildə qazandıqları nailiyyətlərdən bəhs olunub. Qeyd edilib ki, Naxçıvan Dövlət Universitetində yaradılmış Azərbaycanşünaslıq Mərkəzi, Tələbə Turizm Assosiasiyası, kitabxana, Kompüter Mərkəzi magistrantların elmi-nəzəri biliklərə yiyələnmələrinə xidmət edir. 1997-ci ildən fəaliyyət göstərən magistraturada hazırda 268 nəfər magistrant təhsil alır, onlardan 41 nəfəri xarici ölkə vətəndaşıdır.

Plenar iclasda elmi-ictimai fəallığına görə "İlin magistrantı" seçilən mətbuat tarixi ixtisaslaşmasının I kurs magistrantı Kifayət Heydərovaya xüsusi diplom təqdim olunub. Sonra elmi konfrans müxtəlif ixtisaslar üzrə 23 bölmə iclasında öz işini davam etdirib.

Azərbaycanın müxtəlif ali məktəblərində təhsil alan magistrantların da təmsil olunduğu elmi konfransda 110 məruzə dinlənilib, onlardan ən yaxşılarının müəllifləri diplomlarla təltif olunublar.

**M.SULTAN**

*Xalq yaradıcılığı*

## Yaxşı sənətkar kimsəyə möhtac olmaz

***Xalçaçılıq, toxuculuq, dulusçuluq, misgərlik, zərgərlik, dəmirçilik və daha sadalamadığımız neçə-neçə sənət nümunələri... Dünyamız nə qədər inkişaf etsə də, nə qədər yeniliklər baş versə də, sənət nümunələri bizi öz sehri ilə cəlb edir. O sənət ki ata-babalarımızın ustalıq məharətindən, sənətkarlıq qabiliyyətindən xəbər verir.***

Hər bir sənətkar yaratdığı əl işində yaşadığı tarixi dövrün izlərini qoyub. Bəlkə də, gələcək üçün bunun əhəmiyyətli olduğunu düşünməyib. Amma onun minbir əziyyətlə hasilə gətirdiyi məhsuluna vurduğu naxışlar, cizgilər tarixilik və millilik baxımından bu gün tədqiqatçılara çox söz deyir. Qol gücü, zindan və alın təri ilə başa gələn dəmirçilik də bu baxımdan istisna deyil. Dəmirdən istifadənin tarixi çox-çox qədimlərə gedib çıxsa da, bu sənət oturaq həyat sürmüş əcdadlarımızın müəyyən əmək vərdişlərinə, o cümlədən əkinçilik ənənələrinə yiyələndiyi dövrdə təşəkkül tapıb. Torpağın əkilib-becərilməsində zaman-zaman istifadə olunmuş əmək alətləri getdikcə təkmilləşib, cilalanıb, daha əlverişli formaya salınıb. Bu gün muzeylərimizdə eksponat kimi saxlanılan kənd təsərrüfatı alətlərinin hər birində həmin şüurlu, yaradıcı əməyin izləri aydın nəzərə çarpır. Vaxtilə əkinçi babalarımızın yaxın köməkçisinə çevrilən cüt, xış, vəl, dəryaz, oraq, yaba, kətmən, dırmıq və başqa əmək alətləri dəmirçi əməyinin məhsulu kimi olduqca böyük dəyər qazanmışdır. Dəmirçilik sənətinin sadaladığımız və sadalamadığımız nümunələri bu gün də yüksək dəyərə malikdir. Onların hər biri qədim yurdumuzda dəmirçilik sənətinin inkişafından, onun formalaşmasından xəbər verir.

Bu sənətlə məşğul olanlar təkcə kənd təsərrüfatı alətləri deyil, məişətdə gündəlik istifadə olunan bir çox əşyalar da düzəltmiş, insanlara bu sahədə yardımçı olmuşlar. Maşa, daraq, iynə, biz, çuvalduz, sac, qəndqıran, dəstər, çörək şişi, xəkəndaz, qarqara, fırlanquş və sair məişət əşyaları bu qəbildəndir. Onu da qeyd edək ki, kənd yerlərində bu əşyalardan indi də istifadə olunur. Belə ki, yeni tikilmiş evlərin damına mor-suvaq salarkən qarqaradan, təndir külü çıxaranda xəkəndazdan, buğdadan yarma və yaxud qovut çəkərkən dəstərdən istifadə edirlər. Bir sözlə, dəmirçi əməyinin məhsulu olan bu alətlərin hər biri müəyyən funksiyanı yerinə yetirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Yaxşı haldır ki, qədirbilən insanlar texnologiyanın inkişaf etdiyi indiki vaxtda da bu əşyaların dəyərini bilir, onları dədə-babadan qalmış yadigar kimi qoruyub saxlayırlar. Təqdirəlayiq haldır ki, dəmirçilik sənətini yaşadan, onu davam etdirənlər də var. Belə insanlardan biri də Şərur rayonunun Zeyvə kəndində yaşayan Səməd Rəsulovdur. O, bu sənəti atasından öyrənib. Atası Yusif kişi dəmirçilik sənətini yaxşı bilən adam kimi el-obada tanınıb. Ona usta deyə müraciət ediblər. Onun dəmirçi körüyündən çıxmış, qabarlı əlləri ilə düzəlmiş bir çox məişət və kənd təsərrüfatı alətləri neçə-neçə adamın gərəyinə çevrilib. Əməyinin məhsullarından böyük bir sərgi yaratmaq olar.

Səməd Rəsulov deyir ki, dəmirçiliyin nə qədər ağır sənət olduğunu bilmək üçün istehsal prosesini izləmək lazımdır. Proses belə olur: filiz parçaları kömürlə birlikdə kürənin odluğuna qoyulur. Qoşa körük vasitəsilə yaradılan yüksək temperatur filizi əridir. Kürənin odluğundakı qaynar metal kütləsindən əriti zamanı əmələ gələn pas, kəfkir vasitəsilə çıxarılır, təmizlənir. Əlbəttə, sırf dəmir əldə etmək üçün bu, kifayət etmir. Odur ki, dəmirçi ərintini saf dəmir halına gələnədək onu zindan üzərində döyür. Çəkic və zindanların əhəmiyyəti, ilk növbədə, burada üzə çıxır.

Bunlardan savayı, dəmirçilər, əridilərək soyudulmuş metalları dartmaq, döymək və naxışlamaq kimi böyük fiziki güc tələb edən işləri də görürlər.

Dəmirçi bizimlə söhbət əsnasında bunu xüsusilə vurğuladı:

– Atamın sənətini davam etdirməkdən qürur duyuram. Bu sənətin incəliklərini mənə o öyrədib. Çalışıram ki, düzəltdiyim alətlər keyfiyyətli olsun, necə deyərlər, adamların işinə yarısın. Belə olanda müştərilər də bol olur. Şükür, ailəmin dolanışığını təmin edirəm. Hər dəfə zindan başında hansısa bir aləti düzəldəndə müdrikliyimizin çox dəyərli bir deyimi yadıma düşür: yaxşı sənətkar kimsəyə möhtac olmaz...

Bəli, bu, doğrudan da, belədir. "Sənətkarı el yaşadır" ifadəsi də əbəs yerə deyilməyib. Müasir texnika və texnologiyaların məişətə və istehsalata dərindən təsir və nüfuzu, təbii ki, bir sıra sənət növlərini sıradan çıxarıb. Lakin elə sənət növləri də var ki, onlar ilkinliklərini qoruyub-saxlamaq gücünə malikdir. Belələrinin sırasına daxil olan dəmirçilik bu gün də qədimliyi ilə öz yerini və əhəmiyyətini saxlamaqdadır. Bu sənətin, təbii ki, ata-babadan dəmirçiliklə məşğul olanlar tərəfindən gələcəkdə də qorunacağına şübhə yoxdur.

**Sara ƏZİMOVA**

## Mədəniyyət işçiləri təltif olunub

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində muxtar respublikanın 90 illik yubileyi ilə əlaqədar muxtar dövlətin mədəni həyatındakı xidmətlərinə görə bir qrup mədəniyyət işçisi mükafatlandırılmışdır. Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev, Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədova, Bəhruz Kəngərli Muzeyinin direktor əvəzi Mahir Məmmədov, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının şöbə müdiri Südabə Süleymanova, Şərur Rayon Xalq Teatrının rejissoru Nəsimi Məmmədzadə, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının orkestr artisti Elçin Axundov "Azərbaycan Respublikasının fəxri mədəniyyət işçisi" döş nişanları ilə təltif edilmişlər.

Mədəniyyət işçilərindən Faiq Heydərov (Babək Rayon Mədəniyyət Evinin direktoru), Sevda Yusifova (Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin fortepiano müəllimi), Tofiq Rüstəmov (Kəngərli Rayon Mədəniyyət Evinin direktoru), Qurban Nəcəfov (Culfa Rayon Mədəniyyət Evinin bədii rəhbəri) və başqaları isə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanları və pul mükafatına layiq görülüblər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Gənc fortepianoçunun solo konserti

***Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Səfər Rəcəbov adına Naxçıvan şəhər 3 nömrəli Uşaq Musiqi Məktəbinin fortepiano müəllimi Aysel Rzayevanın Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr edilmiş solo konserti olub.***

Tədbirdə məktəbin direktoru Günay Əliyeva gənc fortepianoçu haqqında məlumat verərək bildirib ki, Aysel Rzayeva musiqi təhsili aldığı illərdə Naxçıvan və Bakı şəhərlərində keçirilən respublika səviyyəli tədbirlərdə uğurla çıxış edib, mükafatlara layiq yerlər tutub.

"Görkəmli bəstəkarımız Üzeyir Hacıbəylinin anadan olmasının 125 illiyi münasibətilə təşkil edilən konsertdə ikinci dərəcəli, "Ən yaxşı konsert ifaçısı" müsabiqəsində birinci dərəcəli diploma layiq görülən Aysel Rzayeva bu uğurları "İstedadlı gənc fortepiano ifaçıları" müsabiqəsində yenidən təzələyərək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplomuna layiq görülüb", – deyən Günay Əliyeva gənc musiqiçinin məktəbdəki fəaliyyətindən də danışaraq bildirib ki, o, öz üzərində ciddi çalışır, şagirdlərin musiqinin sirlərinə dərindən yiyələnmələri üçün səy və bacarığını əsirgəmir.

Sonra solo konsert başlayıb. Konsertdə Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirilib.

**Sona MİRZƏYEVA**

## Muxtar respublikada sanitar vəziyyət stabildir

***Hər bir ölkədə epidemioloji vəziyyət tək səhiyyənin deyil, ümumi inkişafın göstəricisidir. Son dövrlərdə muxtar respublikamızda həm qoruyucu peyvəndlərin aparılması, həm də digər tədbirlər sayəsində epidemioloji sabitlik təmin olunmuşdur.***

May ayında muxtar respublikamızda epidemioloji vəziyyət sabit olmuş, zəhərlənmələr baş verməmiş, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilmişdir. Yeni doğulmuş uşaqların 94,6 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd almışdır. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai-iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilmiş, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, tullantı və çirkab suların axıdılan yerlərdə, məişət tullantıları qoyulan meydançalarda 22177 kvadratmetr dezinfeksiya, 13878 kvadratmetr dezinseksiya tədbirləri həyata keçirilmişdir.

İstehsal olunmuş məhsulların sertifikatlaşdırılması işi Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə aparılmış, ay ərzində 38 məhsul sertifikatlaşdırılmışdır.

Ay ərzində Bakterioloji laboratoriya fəaliyyətini davam etdirmiş,120 su, 276 yuyuntu nümunələrinin, 401 digər nümunələrin müayinələri aparılmışdır.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılmış, səhiyyə üzrə 130, təhsil üzrə 250, qidalanma sənayesi, ictimai-iaşə və ticarət üzrə 142, kommunal sahələr üzrə 24, sürücülük üzrə 60 nəfər olmaqla, bütövlükdə, 606 nəfər müayinədən keçmişdir.

Radioloji qrup tərəfindən 12 yerdə gündəlik olaraq radioloji ölçmələr aparılmış, təbii fon şüalanması yol verilən hədd daxilində olmuşdur. Qidalanma gigiyenası laboratoriyasında 143 nümunədə 572 müayinə aparılmış, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 7 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilmişdir.

Kommunal gigiyena laboratoriyasında 72 nümunədə 576, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 44 nümunədə 143 müayinə aparılmışdır. Əhalinin sanitariya sahəsində maarifləndirilməsi işi ardıcıl davam etdirilmiş, 19 mühazirə oxunmuş, 3 seminar keçirilmiş, tibbi şurada 6 məsələ müzakirə edilmişdir.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətinə görə yoxlanılmış, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov və şuranın kollektivi iş yoldaşları Rövşən Hüseynova, qohumu **HACININ** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin əməkdaşlarından Nəzakət İsmayılova, İman Cəfərli, Rəsul Bağırov və Fatma Cəfərova iş yoldaşları

Yasəmən İsmayılovaya, qardaşı **HACI İSMAYILOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Aypara Behbudova və kitabxananın kollektivi iş yoldaşları Yasəmən İsmayılovaya, qardaşı **HACI İSMAYILOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 515